**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ**

İŞTİRAKÇININ

# YADDAŞ KİTABÇASI

*(peşəkar mühasib sertifikatı imtahanının I mərhələsinə dair)*

Aşağıdakıları imtahana gətirmək qadağandır:



2025

## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

1. İmtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlin (bina haqqında məlumat imtahana buraxılış vərəqənizdə göstərilmişdir).
2. **İmtahana aşağıdakı sənədləri gətirin:**
   - **şəxsiyyəti təsdiq edən sənəd** (şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu)
   - **imtahana buraxılış vərəqəsini.**
3. Özünüzlə diyircəkli qələm gətirməyi unutmayın.
4. **İştirakçı aşağıdakı hallarda imtahana buraxılmır:**
   - tələb olunan sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmışdan gec gəldikdə;
   - imtahana sərxoş vəziyyətdə gəldikdə;
   - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.
5. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.
6. İmtahan zalında texniki qurğularla (monitor, klaviatura, qulaqlıq və s.) ehtiyatlı davranın.

## İŞTİRAKÇININ İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR

1. İmtahan zalına daxil olarkən sənədlərinizi təqdim edin və qeydiyyatdan keçin.
2. İmtahan zalında sizin üçün ayrılmış kompüterin qarşısında əyləşin və ekrandakı göstərişləri diqqətlə izləyin.
3. Ekrandakı şəxsi məlumatların düzgün qeyd olunduğunu diqqətlə yoxlayın. Hər hansı bir uyğunsuzluq aşkar etdikdə zal nəzarətçisinə müraciət edin.
4. İmtahan proqramının istifadəsi və imtahan qaydaları ilə tanış olmaq üçün ayrılan vaxt tamamlandıqdan sonra imtahan başlanır.
5. **İmtahan müddəti 3 saatdır.**
6. **<u>PMS imtahanın I mərhələsi üzrə imtahanda</u>** sizə muhasibat uçotu üzrə 30-u qapalı, 10-u isə açıq tipli (ətraflı şəkildə yazılı cavablandırılması tələb

olunan) olmaqla ümumilikdə 40 tapşırıq təqdim olunur. Qapalı tipli test tapşırıqlarında 4 cavab bəndindən (A, B, C, D) istifadə olunur.

7. Qapalı tipli 1-20 nömrəli tapşırıqlar üzrə hər düzgün cavab 1 balla, 21-30-cu tapşırıqlar üzrə isə 2 balla qiymətləndirilir. **Səhv cavablar yekun nəticəyə təsir göstərmir.** İmtahanı yekunlaşdırdığınızda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda qapalı test tapşırıqları üzrə nəticələriniz ekranda göstərilir.
   Ətraflı şəkildə yazılı cavab verilməsi tələb olunan 31-40 (açıq tipli) nömrəli tapşırıqlar üzrə cavablar markerlər tərəfindən meyarlar əsasında qiymətləndirilir. 31-38 nömrəli tapşırıqların qiymətləndirilməsi 5 ballıq, 39-40 nömrəli tapşırıqların qiymətləndirilməsi isə 10 ballıq şkala üzrə aparılır. Ətraflı yazılı cavab verilməsi tələb olunan açıq tipli tapşırıqlar da daxil olmaqla imtahanın yekun nəticələri haqqında məlumat DİM-in internet saytında yerləşdirilir.
8. "İmtahan başlandı" elan edilən andan etibarən imtahan üçün ayrılan vaxtdan səmərəli istifadə edin. Cavabların qeyd olunması üçün sərf olunan vaxt da imtahan müddətinə daxildir.
9. Hesablamaları və qeydləri aparmaq üçün imtahanda sizə verilən xüsusi formalı qeyd vərəqindən istifadə edə bilərsiniz. İmtahan yekunlaşdıqda qeyd vərəqini nəzarətçiyə təhvil verməyi unutmayın.
10. İmtahandan sonra keçiriləcək ekspertiza nəticəsində hər hansı bir test tapşırığı səhv hesab edilərsə, həmin tapşırıq bütün iştirakçılar üçün düzgün cavablandırılmış sayılır.

---

**DİQQƏT!** Başqasının cavablarını köçürməyin. Özünüz də diqqətli olun ki, sizin cavablarınızı heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edildikdə imtahan nəticələriniz ləğv olunur.

---

11. **"İmtahan başlandı" elan edildikdən 30 dəqiqə müddət keçənədək imtahan zalından çıxmağa icazə verilmir.**

## İŞTİRAKÇIYA QADAĞANDIR:

1. İştirakçı imtahan zamanı aşağıda göstərilən qadağalara əməl etmədikdə o, imtahandan xaric olunur və onun imtahan nəticələri ləğv olunur:

- saxta sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək;
- imtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, pozan, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;

---

**DİQQƏT!** İştirakçının imtahana qadağan edilmiş vasitə, vəsait və ya əşya gətirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib

edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.

**DİQQƏT!** Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.

- imtahan binasına yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla daxil olmaq, yemək, içki, tütün məmulatları gətirmək;

**DİQQƏT!** Elektron imtahan zamanı kompüter avadanlığının zədələnməsi riskinin qarşısını almaq məqsədilə imtahan iştirakçılarının imtahan binasına (zala) su və digər maye məhsullar gətirməsi qadağandır. Zərurət olduqda iştirakçılar içməli su ilə təmin olunur.

- imtahan başlandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq, danışmaq, kiməsə kömək etmək və ya kiminsə köməyindən istifadə etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqası üçün ayrılmış kompüterə baxmaq və ya öz kompüterinə başqasının baxmasına şərait yaratmaq;
- imtahan suallarını kağız, elektron və ya başqa hər hansı bir vasitə ilə imtahan zalından çıxartmaq;
- **“İmtahan başlandı” elan edildikdən 30 dəqiqə müddət keçənədək imtahandan çıxmaq.**

2. İştirakçı imtahandan sonra aşağıda göstərilən qadağaya əməl etmədikdə, onun imtahan nəticələri ləğv edilir və barəsində zəruri inzibati və hüquqi tədbirlər görülür:

    - imtahan suallarını çap etmək, tirajlamaq, yaymaq, sosial şəbəkələrdə paylaşmaq və ya bu halların yaranmasına səbəb olmaq.

Əgər imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi ölçü götürməzsə, imtahan rəhbərinin və ya DİM nümayəndəsinin zala gəlməsini tələb edin.

Zal nəzarətçiləri qeyri-fənn müəllimləridir. Onların vəzifəsi imtahanın gedişi zamanı nizam-intizam yaratmaqdır. İmtahanın başlandığı elan edildikdən sonra sizin onlara sual verməniz, onların sizə yaxınlaşıb hər hansı bir məlumat almaq üçün müraciət etməsi imtahan qaydalarına ziddir.

Nəzarətçi müəllimlərin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin. İmtahan binasından çıxdıqdan sonra imtahanın gedişi ilə əlaqədar şikayətlərə baxılmayacaqdır.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***